

# "Yaxşı bir peşəyə sahib olmaq ömürboyu iş imkanı deməkdir"

## BDU-nun 47 yaşlı məzunu peşə təhsili alır



### Eyni müəssisədə, eyni ixtisasa ikinci dəfə qəbul olundu

Ruhiyyə Yolçuyeva Bakı Dövlət Universitetinin məzunu, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsidir. Eyni peşə təhsil müəssisəsinin eyni ixtisasına eyni ildə ikinci dəfə qəbul olunub: "Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin adını çox eşitmişəm, fərqini mətbuatdakı məlumatlardan öyrənmişəm, fəaliyyətini maraqla izləmişəm. Burada arzuladığım ixtisası seçdim və qəbul olundum. Amma Mərkəzin "6 nömrəli Bakı Peşə Liseyi" korpusunun olduğunu bilmirdim, nəticədə başqa yerə qəbul olunduğumu düşünüb imtina etdim. Boş qalan yerlərə qəbul elan olunanda yenidən cəhd etdim və ikinci dəfə eyni ixtisasa qəbul oldum. Birinci dəfə də elə bu yerə qəbul olunduğumu burada öyrəndim. Mənim üçün maraqlı xatirə oldu".

### Zaman peşə təhsili almaq zamanıdır

Ruhiyyə Yolçuyeva Qazax rayonunda doğulub, əvvəlcə Orta Salahlı kənd məktəbində birinci, sonra şəhər - Qazax şəhər 1 nömrəli tam orta məktəbində on birinci olub. Bakı Dövlət Universitetində "Jurnalistika" ixtisasına yiyələndikdən sonra sadəcə jurnalistliklə məşğul olmaqla kifayətlənməyib, biliyini artırıb, bacarıqlarını inkişaf etdirib. Saysız kitablar oxuyub, çoxlu ölkələr, şəhərlər gəzib. Marağı onu, sadəcə şəhər-şəhər dolaşdırmayıb, həm də ayrı-ayrı sahələrdə özünü sınamaq ehtiyacı hiss etdirib. Reklam işi ilə maraqlanıb, marketinq meneceri olub, böyük şirkətlərdə çalışıb. Bir ara dərziliyə meyil edib, dərzilik təhsili alıb, biçib-tikməyi öyrənib. Sonra sıradan çıxan əşyalara yenidən "həyat qazandırmağa", ev şəraitində köhnədən yeni hazırlamağa cəhd edib. Dedim axı, həyatda birinci olmağa alışıb, indi əlini də alışdırmağa çalışır. Düzəltdiyi əşyalar bir-bir evinin hər tərəfini tutub, köhnə əşyalar yeni formada yenidən evin bir küncündə yerini tapıb. Dediyinə görə, əl işləri hazırlayarkən bəzi çətinlikləri olur, odur ki, bu işin peşəkarlarından öyrənməyə qərar verib və bu il peşə təhsili müəssisələrinə qəbul imtahanlarında iştirak edib. Budur, Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin tələbəsidir: "Həyatda elə şeylər var ki, onlara çatmaq, sahib olmaq həqiqətən də sənin mübarizənə, istəyinə, əzminə bağlıdır. Hər insanın qabiliyyətləri, həvəsləri, maraqları olur. Bu da təbiidir, yaşayırsansa, həyata davam edirsənsə, onları kəşf etməyi və "zaman bu zamandır", - deməyi bilməlisən".

O da "Zaman peşə təhsili almaq zamanıdır", - deyib: "Ağac və taxta məhsullarının yenidən emalı diqqətimi cəlb edir. Atılan mebellərdən yeni əşya düzəltmək, kəsilən bir ağac parçasını dəyərləndirməklə, həm də israfın qarşısını aldığımızı düşünürəm. Əslində, maraq və ya məşğuliyyət adına görülən bu iş həm insana, həm təbiətə, iqtisadiyyata faydalıdır. İstifadə edəcəyimiz o qədər yenidən emal layihələri var ki. Eyni zamanda atılacaq, yararsız kimi dəyərləndirilən mebellər bir bacarıqlı insan əllərində dönüb tamamilə yeni əşya olur, ailə büdcəsinə də ciddi fayda gətirir. Bunları düşünə-düşünə özümü bu sahədə tapdım. Bu işdən zövq almağa başladım. Xoşbəxtlikdən əl qabiliyyətimi, əlimin bu işlərə yatqın olduğunu gördüm, yoxsa həvəsim qısa müddətdə itə bilərdi. Düzəltdiyim əşyalar mənə zövq verdi. Artıq bu sahədə qüsursuz olmaq istəyirəm, çətinlik çəkdiyim bəzi işləri öyrənməliyəm. İşi ustalarından öyrənmək imkanım varsa, niyə bu fürsəti dəyərləndirməyim?".

R.Yolçuyeva yenidən emal və bu sahədə görülən işlərə maraq göstərməyə başlayandan plastiklərlə mübarizəni də intensivləşdirib: "Bir plastik şüşənin, kağızın, camın necə faydalı və istifadəyə yararlı əşyaya döndüyünü maraqla izləyir və özüm də onlara yenidən həyat verməyə çalışıram. Halbuki plastik tullantının nə qədər təhlükəli olduğunu hər birimiz bilirik. Onlar torpağa qarışmır, zərərlidir".



### "Elektrik qatarı maşinisti peşəsinə də yiyələnmək istərdim"

Peşə təhsilinin, peşəkar olmağın, hansısa peşə sahibinə çevrilməyin çağdaş dünyada əhəmiyyətinin artdığının fərqində olan müsahibim deyir ki, insan müasir tələblərə cavab verə bilmək üçün bacarıqlarını artırmalıdır: "Əslində dünyada elektrik, santexnik, mebel ustası, dərzi, aşpaz, bərbər, və s. kimi peşələrə çox böyük rəğbət olduğunu müşahidə edirəm. Hər halda bu, həmin peşələrə tələbatla bağlıdır. Fikrimcə, sadəcə universitet bitirməyə və diplom almağa çalışmaqdansa, yaxşı bir peşəyə sahib olmaq ömürboyu iş imkanı deməkdir. Xaricdə də, ölkəmizdə də bu, belədir. Bir az da bu amilin rolu var bu gün peşə təhsili almağımda".

Başqa hansı peşə maraqlıdır? Hədəfində yeni bir peşə varmı, deyə soruşuruq: "İnsanın maraqları bitmir. Bu il mebel ustalığı təhsili ilə yanaşı, fotoqraf kursunda da təhsil alacağam. Bundan sonra mənə maraqlı olan daha fərqli peşə sahəsinə yönəlmək fikrim var. Məsələn, elektrik qatarı maşinisti peşəsinə yiyələnmək, hətta bu sahədə çalışmaq istərdim".

### "Yenidən emal emalatxanamın olacağı günün xəyalını qururam"

Ruhiyyə Yolçuyeva sözlərinə əlavə edərək deyir: "40 yaşıma qədər jurnalist, reklam və marketinq sahəsində çalışdım. Bu sahədə fəaliyyətimi davam etdirirəm. Amma bu günlərdə daha çox həm tələbə yetişdirəcəyim, həm maraqlı layihələr həyata keçirəcəyim bir yenidən emal emalatxanamın olacağı günün xəyalını qururam. Xəyalımı gerçəkləşdirməyə gecikmədiyimi düşünürəm, hətta bunun xəyal deyil, plan olduğuna indi daha çox inanıram. Bu inamla əlimdən gələni edəcəyimə şübhəniz olmasın".

**Səhifəni hazırladı:**
**Ruhiyyə DAŞSALAHLI**

Azərbaycan müəllimi.- 2024.- 27 sentyabr, №35.- S.10.